# Haqqın və ədalətin bərpa olunması zərurətindən doğan tarixi qərar

XVIII əsrin əvvəllərindən çar Rusiyasının xarici siyasətində Qafqaz mühüm rol oynamağa başlamış və çarizm bu dövrdən etibarən cənubda öz strateji mövqelərini möhkəmləndirməyə çalışmışdır. Tarixi faktlara nəzər saldıqda görərik ki, Qafqaz həm siyasi, həm də iqtisadi mənafe baxımından, Rusiyanın daim diqqət mərkəzində olub və bu dövrdə çar Rusiyası Azərbaycanı işğal etmək, burada özünə dayaq yaratmaq məqsədilə ermənilərdən məharətlə istifadə edib. Ermənilər də Rusiya imperiyasının onlara arxa duracaqlarına ümid bəsləyərək çarizmin Qafqazı işğal etməsinə köməklik göstərməklə öz hiyləgər siyasətlərini həyata keçirmək niyyətində olublar. Çar Rusiyası onunla əlaqə saxlayan ermənilərdən öz gələcək işğalçılıq planlarının həyata keçirilməsi üçün bir vasitə kimi istifadə etmişdir. Ermənilər havadarlarının maddi və hərbi-siyasi dəstəyi ilə XIX-XX əsrlərdə müəyyən mərhələlərlə azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırımlar törətdilər, deportasiyalar həyata keçirdilər.



Həmin soyqırımların ilk mərhələsi 1905-1906-cı illəri əhatə edir. Tarixə ilk olaraq "erməni-müsəlman qırğınları" kimi düşən bu qanlı faciələri hüquqi-siyasi baxımdan azərbaycanlılara qarşı soyqırım adlandırmaq onun mahiyyətinə tam uyğun gəlir. 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri və o dövrdə "milli qırğınlar" kimi tarixə düşən cinayətlər də soyqırım kimi xarakterizə edilir.

1988-1993-cü illərdə ermənilər yenə də havadarlarının köməyi ilə Dağlıq Qarabağda və onun ətraf rayonlarındakı ərazilərdə azərbaycanlılara qarşı soyqırım həyata keçirdilər. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanında qeyd edildiyi kimi, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil edirdi. 1990-cı illərdə də xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20%-ni işğal etmişdirlər. Artıq 30 ilə yaxın düşmən işğalı altında qalan torpaqlarımız azad edildi. Bu qələbə ilə Azərbaycanımızn ərazi bütövlüyü bərpa edildi.

2016-cı il aprel ayında Lələtəpə və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri aşağılayacı və təxribatçı bəyanatlar vermişdilər. 2020-ci il 27 sentyabr tarixində Ermənistan tərəfindən növbəti hərbi təxribat törədilmiş, Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutulmuşdur. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir. Beləliklə də, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etmişdir. Şübhəsiz ki, Azərbaycan Ordusunun bu tarixi qələbəni qazanmasında xalqın sarsılmaz birliyi və həmrəyliyi mühüm rol oynadı. Xalqın birliyi və ədalətli mövqeyi "dəmir yumruq"da birləşərək işğalçıya sarsıdıcı zərbə vurdu. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. 44 günlük Vətən müharibəsində hər birimiz Xalq-Ordu-İqtidar birliyinin sarsılmaz bütünlüyünün şahidi olduq. Düşmən üzərində qazanılmış qələbə nəticəsində Azərbaycan xalqının ictimai şüuru yeni inkişaf mərhələsinə qədəm qoydu. Artıq harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı dərk edir ki, ölkəmiz öz ərazi bütövlüyünü təmin edib. Bizlər artıq bütöv Azərbayacanın vətəndaşlarıyıq.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin hörmət əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Dövlətimizin bu addımı şəhidlərimizin ruhuna, onların doğmalarına ehtiramın göstəricisidir.

# Elə oğul böyütdün ki...

Bir gün gələn, bir gün getməlidir. Həyatın yazılmış qanunudur bu. Necə deyərlər, "Ölüm haqqdır, qaçmaq olmaz əmrdən". Bir az geci, tezi olur onun. Başlıca şərt isə ulu Tanrının verdiyi ömür payını necə yaşamaqdır. İnsan həyata göz açdığı gündən mübarizələr aparır. İstəklərinə, arzularına çatmaq üçün çalışır, vuruşur, sonda isə layiq olduğu zirvəyə yüksəlir. Eynilə şəhidlər kimi.

Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə-neçə ərənlər yetişdirib bu torpaq. Vətəndən, vətəni qoruyan oğullardan nə qədər yazsaq da sözlərimiz bitməz, tükənməz... sanki onlar Allah tərəfindən xüsusi olaraq seçilmiş, mələk cildində dünyaya göndərilmiş insanlardır. Sanki Allah onların ömür yolunu öncədən yazıb, müəyyən bir zirvə üçün onları bu dünyaya göndərib. O zirvə isə Allahın dərgahı-Şəhidlik zirvəsidir. Onlar elə bir zirvədədirlər ki, hər birimiz o zirvəyə həsrətlə baxırıq. Bütün insanlar vaxtı çatanda bu dünyadan köçür, lakin şəhidlər haqqında "öldü" demirik. Şəhidlik zirvəsi hər insana nəsib olmur.

***Anacan, ağlama, şəhid olarsam,***
***Demişdi gedəndə, o can parçası!***
***Gözlərim qan ağlar, deyir, ağlasam,***
***Şəhid Anası!***

Ana övladını dünyaya gətirdiyi gündən onunla bağlı xəyallar qurar, onu ən gözəl şəkildə yetişdirib milləti üçün xeyirli bir şəxs kimi görmək istəyər. Tamara ana 4-ü oğlan, 3-ü qız olmaqla, 7 övlad dünyaya gətirir. Övladların hər biri bir-birindən mərd və igid... Ananın 3 oğlu da I Qarabağ müharibəsində iştirak edib. Həyat ard-arda Tamara anaya elə zərbələr vurur ki, son ümid yeri kimi oğlu Natiqə sığınır. Tamara ana nə biləydi ki, ümidini dikdiyi oğlu bu gün xalqın qəhrəmanı olacaq... Buna baxmayaraq anamızın bu gün başı dikdir, əsl qəhrəman anası kimi mərd dayanıb. Tək təsəllisi isə oğlunun qanı tökülən torpaqların düşmən tapdağından azad olunması, oğlunun qanının yerdə qalmamasıdır. Tamara ana hələ də oğlunun şəhid olmasına inanmır. Gözü hər an oğlu gələcək deyə qapıdadır. Çarəsiz ana oğlunun cansız bədənini görmədiyi üçün onun bir gün gələcəyinə inanır.




İsmayılov Natiq Əjdər oğlu 1980-ci il martın 10-da Bunud kəndində dünyaya göz açır. 8-ci sinifə qədər Bunud kənd tam orta məktəbində təhsil alan Natiq, daha sonra təhsilini Cəmşid Naxçıvanski adına hərbi liseydə davam etdirir. Daha sonra hərbi akademiyaya daxil olur. O ali təhsilini bitirdikdən sonra "leytenant" hərbi rütbəsiylə xidmətə başlayır. Vətənini çox sevirdi... Bir an olsun ayrılmaq istəmirdi sevdiyi peşəsindən. O Naxçıvanda, Qusarda, Murovdağda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirib. Vətənimizin qəhrəman oğlu Natiq İsmayılov 2016-cı ildə baş verən aprel döyüşlərində iştirak edib.

Azərbaycan ordusunun cəsur, qorxmaz mayoru 2020-ci ildə ehtiyata buraxılır, lakin vətənə olan sevgisi, sədaqəti onu saxlaya bilmir. 2020-ci il 27 sentyabrda başlayan müharibəyə yollanmaq istədiyini ailəsinə, anasına deyir. Tamara ana digər oğulları kimi, bu oğlunu da xeyir-dua verərək öz əlləriylə müharibəyə yola salır. O, müharibəyə gedəndə ailəsindən, uşaqlarından narahat deyildi. Çünki bilirdi ki, xalqı onun ailəsinə dəstək olacaq, onları tək qoymayacaq. Natiq İsmayılov da qardaşlarının yolu ilə getdi. Çünki onun əqidəsi, ona verilən tərbiyə bunu tələb edirdi. Getməli idi. Torpaqlarımızı yağı düşmənin tapdağından azad etməli idi. Ən böyük arzusu idi vətənini azad görmək. O Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə səfərbərlik çağırışına qoşulur və oktyabrın 17-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olur.

Şəhidimizin Ömər, əkizlər-Bəhbud, David, Gülər adlı 4 övladı ondan bizə qalan yadigarlardır. Onun həyat yoldaşı Nigar xanım əsl Azərbaycan xanımı kimi, mərd bir qadın kimi öz övladlarını böyüdür. Onun tək arzusu şəhid həyat yoldaşına verdiyi sözü tutmaq, övladlarını vətənə, millətə xeyirli, savadlı bir şəxsiyyət kimi yetişdirməkdir. Bəli, belə də olmalı idi. Natiq kimi mərd oğulların övladları da onların adlarına layiq şəkildə yetişdirilməlidir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Natiq İsmayılov "Vətən uğrunda" medalı ilə təltif olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərən Natiq, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Bu gün artıq şəhidimizin ruhu şaddır. Çünki azadlığını görməyi arzu etdiyi torpaqlar onun sayəsində azaddır, firavandır. Onun bizə əmanət qoyub getdiyi övladları hələ şəhidliyin nə demək olduğunu dərk etməsələr də, böyüdükləri zaman dərk edəcəklər. Bu cür bir qəhrəman atanın övladları olduqları üçün fəxr edəcəklər. Tarix kitablarından qəhrəman atalarının yazdığı tarixi oxuyacaqlar. Hər kəsə bu tarixi yazanlardan biri də mənim atamdır deyəcəklər. Başını dik tut qəhrəman oğulun qəhrəman anası!.. Başını dik tut şəhid yoldaşı!.. Başınızı dik tutun qəhrəman övladları!.. Başınızı dik tutun ki, düşmən sevinməsin. Onlar vətəni qorudular, torpaqlarımızı azad etdilər. Valideynlərini, sevdiklərini nə qədər əziz, uca tutdularsa, vətəni də bir o qədər uca bildilər. Sən oğul böyütdün ey şəhid anası, oğul deyirəm sənə... Elə oğul ki, Vətən uğrunda canından keçdi! Elə oğul böyütdün ki, düşmənə bu torpağın canı bahasına olduğunu sübut etdi! Sən elə oğul böyütdün ki, düşmənin yolunu kəsdi... Həmdə ən şirin tək olan canı ilə, əmanət canını nəfəs aldığı,çörəyini yediyi torpağa verdi. Bir qarış torpağı namərd əlinə keçməsin deyə.

Şirin xatirətək qalacaqdır dünyada sevərək yaşayanlar, sevilərək ölənlər. Şəhidlərimiz həyatı sevərək yaşayıb, sevərək şəhid oldular.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Əbədi məskən salanlar

Qəbələ gəncləri vətənpərvərliyi və milli mənəvi dəyərləri ilə həmişə fərqlənmişlər. 44 günlük Vətən müharibəsində rayonumuzun vətənpərvərləri arasında 37 nəfər şəhadətə qovuşaraq şəhid olmuşlar. İyul hadisələri zamanı şəhid olan general-mayor və ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı almış vəndamlı Polad Həşimovu da nəzərdə tutsaq, Qəbələnin 38 igidi şəhidlik zirvəsinə qovuşmuşdur. Onlardan 10 nəfəri ailəli, 28 nəfəri subay gənclərdir. Həmçinin şəhidlərdən 2-si polkovnik-leytenant-Abdurəhmanov Əfqan, Abuşov Bəhruz; 1-i mayor-Natiq İsmayılov; 1-i baş leytenant-Ənvərli Aqşin; 1-i leytenant-Babayev İqbal; 5-i gizir-Baxışov Hakim, Elşən Dəmirli, Mikayıl Mikayıllı, Qasımov Təbriz, Abdurəhmanov Elvin; 1-i MAXE əsgər-Qədirzadə Aqşin; 26 nəfər-Qurbanov İsmayıl, Əmiraslanov Ümman, Kərimov İsmayıl, Süleymanov Vasif, Cəlilov Tural, Şirinov Taleh, Yusifov İmaməddin, Mustafayev Elməddin, Eyyubov Sərvan, Atakişiyev Rüstəm, Səfərçinov Xeyribəy, Bayramov Coşqun, Bayramov Aydın, Ağayev Tapdıq, Mikayılov Şöhrət, Əhmədov Mikayıl, Səmədli Vüqar, Nəsrullayev Rəşid, Rəhimov Fariz, Heydərov Adəm, Zeynalov Əsəd, Babayev Ağaşirin, Üzeyirov Qoşqar, İdrisov Ruslan, Musazadə Azər, Rəhimov Elnur sıravi əsgərlərdir.

Onlar Vətən uğrunda qəhrəmanlıqla vuruşaraq canlarını vətənə qurban etmişlər.

Özlərinə əbədi olaraq könüllərdə məskən salan şəhidlərimiz hər kəsin qəlbində, tariximizin yaddaşında daima yaşayacaqlar!

Allah cəmi şəhidlərimizə rəhmət etsin!

**"Qəbələ"**